Yazan
08.08.13 21:01 -

Prezident İlham Əliyevin rəhbərliyi altında son on ildə Azərbaycan möhtəşəm inkişaf mərhələsini yaşamışdır. Bu illər ərzində Azərbaycanın iqtisadiyyatı dəfələrlə artmış, çox ciddi dəyişikliklər baş vermişdir.
AzərTAc xəbər verir ki, bu sözləri Yeni Azərbaycan Partiyasının (YAP) sədr müavini- icra katibi, Milli Məclisin deputatı Əli Əhmədov jurnalistlərə müsahibəsində demişdir.
Ə. Əhmədov 2003-cü illə 2013-cü ili müqayisə edərək bildirmişdir ki, bu illər ərzində insanlarımız dəyişmiş, onların həyat səviyyəsi yüksəlmişdir. İndi Azərbaycan dünya birliyinin ən fəal və qarşısında böyük perspektivləri dayanan üzvlərindən biridir.
Müstəqil Azərbaycan bütün dünya tərəfindən həm sosial-iqtisadi, həm də ictimai-siyasi cəhətdən sürətlə inkişaf edən və çox yaxın zamanlarda inkişaf etmiş dövlətlər sırasına daxil olmağa layiq olan namizədlərdən biri kimi qəbul edilir. Bu, Azərbaycanın on il ərzində keçdiyi yolun ən ümumi şəkildə xarakteristikasıdır.
YAP-ın sədr müavini qeyd etmişdir ki, Prezident İlham Əliyevin növbəti fəaliyyət dövrünün proqramının da əsas cəhətləri Azərbaycanın on il ərzində müşahidə etdiyimiz inkişafını davam etdirməkdən ibarətdir. Azərbaycan iqtisadiyyatının qarşıdakı müddətdə iki dəfə artacağını da ifadə etmək olar. On beş il ərzində Azərbaycanın iqtisadiyyatı 5-6 dəfə inkişaf edəcəkdir. Bu, möhtəşəm bir vəzifə olaraq qarşıya qoyulmuşdur. Təbii ki, Azərbaycanda adambaşına düşən illik gəlirin də 10 min dollardan yuxarı səviyyəyə çatdırılması qarşıya qoyulan vacib məqsədlərdən biridir